*S.Gündoğdu. Sıratı-müstəqim məcmuəsinin nəşri tarixi // Əlyazmalar yanmır, 2019, №2 (9), s.145-153.*

UOT: 821.512.161

**Səriyyə Gündoğdu**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Bakı ş.,H.Cavid prospekti,115*
*e-mail: seriyye@yahoo.com*

# "SIRATI-MÜSTƏQİM" MƏCMUƏSİNİN NƏŞRİ TARİXİ

*Sıratı-müstəqim/Səbilürrəşad türk siyasət tarixinin ən keşməkeşli dövrlərindən hesab edilən II Məşrutiyyət, Balkan savaşları, İttihad və Tərəqqi dövrü, Mütarikə illəri, Milli mübarizə və Cumhuriyyətin ilk illərini və çox partiyalı həyata keçiş dövrlərini yaşamış bir məcmuədir.*

*M.Akif Ərsoy və Əşrəf Edibin 1908-ci ildə Sıratı-müstəqim adıyla nəşrinə başladıqları bu məcmuə ideoloji fikiri və əməli fəaliyyəti təlqin etmişdir. Dövrünün sosial-siyasi, ədəbi və mədəni həyatının inkişafında mühüm rol oynadığı üçün tarixi sənəd dəyərində bir məcmuədir. Sıratı-müstəqim/ Səbilürrəşad 1000 sayı və 47 cild olaraq nəşr olunmuşdur. Sıratı-müstəqim dövrün sosial və ideoloji mənzərəsini əks etdirən elmi, ədəbi və tarixi bir vəsiqə dəyərindədir. Məcmuənin əsas ideologiyası Dövləti-Aliyənin dağılmaması, müsəlman Şərqinin birliyini, inancını qorumasıdır.*

***Açar sözlər:*** *Sıratı-müstəqim, Səbilürrəşad, nəşri tarixi, M.Akif Ərsoy*

## Giriş

*Sıratı-müstəqim II Məşrutiyyətin elanından 35 gün sonra nəşrinə başlamışdır. Məşrutiyyətin yenidən elan edilməsi Osmanlı Dövləti üçün dönüş nöqtəsi olmuşdur. Məşrutiyətin elanı birlikdə II Abdülhəmid dövründə ortadan qaldırılan anayasa təkrar cəmiyyətin həyatına girmiş və hüquq sistemində tətbiq edilməyə başlanmışdır. Bu da məşru bir dövlətin qurulmasının, ölkəyə demokratiyanın və hürriyyətin gəlməsinin bariz nümunəsi idi. Cəmiyyətdə meydana gələn cəmiyyət həyatına və ideoloji düşüncə tərzinə də öz təsirini göstərmişdir. Osmanlıcılıq ideologiyası ilə yanaşı Qərbmeyilli düşüncə, Türkcülük və İslamcılıq kimi ideoloji cərəyanları özlərinin mətbu orqanları vasitəsi ilə yaymağa başlamışdır. Bu da bir daha ölkədə mətbuatın önəmini və əhəmiyyətini göstərir.*

İslamcılıq fikrinin mətbu orqanı olan Sıratı-müstəqim, ittihadçı-islamcı düşüncənin mətbu orqanı olmuşdur. Məcmuə ilk olaraq 11 iyul 1908-ci ildə Ebülula Zeynalabidin Mardin (1881-1957), Serezli Hafiz Əşrəf EdibFərqan (1883-1971) və Mehmet Akif Ərsoy (1873-1936) tərəfindən təsis edilir. Məcmuənin adı Əşrəf Edib tərəfindən "Sıratı-müstəqim" olaraq təklif edilir və Ebüləla Zeynalabidin, eləcə də Mehmet Akif tərəfindən bəyənilərək qəbul edilir. Əşrəf Edib bu haqda "Səbilür-rəşad"ın 1957-ci il fevral ayı sayısında qeyd edir. " Bir çox adların təklif edilməsinə baxmayaraq, heç biri bəyənilmirdi. Lakin Əşrəf Edibin irəli sürdüyü "Sıratı-müstəqim" adı Əbüləla Zeynalabidin tərəfindən çox bəyənilir, başda Mehmet Akif olmaqla digər ədiblərə də məcmuənin adını söylər. Hamı məcmuə üçün təklif edilən bu adı bəyəndikdən sonra məcmuə bu adla qeydiyyatdan keçir. Böyük rəğbət görən məcmuənin ətrafına dövrünün ən məşhur ədib və mütəfəkkirləri toplanır. Mehmet Akif Ərsoy baş redaktor olaraq təyin edilir. Müəyyən bədii-esteteik fikrə və ideologiyaya sahib müəlliflərin məcmuə ətrafında toplanması məhz M.Akif Ərsoyun adı ilə bağlıdır.


صراط مستقیم
۱۳۲۶
دین، فلسفه، ادبیات، حقوق وعلومدن باحث هفته‌لق غزته‌در

Məcmuənin təsis olunduğu tarixn 11 İyul (1324/1908) olaraq qeyd olunsa da 43-cü nömrəsindən etibarən II Məşrutiyyətin elan olunduğu tarixin şərəfinə, 10 İyul 1908-ci il olaraq dəyişdirilmişdir.Məcmuənin birinci nömrəsi yuxarıda da göründüyü kimi 14 Avqust Cüməaxşamı 1324/1908 tarixində nəşr edilmişdir.Burada onu da qeyd etmək yerində olar ki, bir neçə qaynaqda məcmuənin təsis tarixi və ilk sayısının nəşri tarixində ixtilaflar və müxtəliflik mövcuddur. Lakin arxiv materialı olaraq məcmuənin elimizə keçən ilk nüsxəsində Osmanlıca, yəni ərəb qrafikası ilə dəqiq məlumat verilmişdir. Qeyd etdiyimiz təsis tarixi də məhz buna əsaslanır.

Osmanlı Türkiyəsində II Əbdülhəmidin iktidardan getməsi ilə İslamcılıq cərəyanı siyasi gücünü itirmişdi. “Sıratı-müstəqim” məcmuəsi yaranan digər cərəyanlarla yanaşı ölkədə siyasi məsələlərlə yanaşı, milli-mənəvi dəyərlərin tənzimlənməsi və qorunması vəzifəsini öz üzərinə götürmüşdür.

Məcmuə başlığı olan “Sıratı-müstəqim”yazısının altında ilk sayıda “Din, fəlsəfə, ədəbiyyat, hüquq və elmdən bəhs edən həftəlik qəzetdir” cümləsindəki “qəzetdir” sözü eyni həftə içində yayınlanan ikinci nəşrdə “risalədir”(kiçik kitab, məcmuə) sözü ilə əvəz edilmişdir.Bu yazının altında təsisçilərin-Ebüləla və Əşrəf Edibin adları yazılmışdır. Onun altında illik və altı aylıq abunəlik haqları göstərilmişdir. Ortada təsis tarixi yazılmışdır. Sol tərəfdə isə “Dərsaadətdə (İstanbulun əvvəlki adı) nüsxəsi 50 paradır” ifadəsi yer alır. Daha sonra isə abunə olanlara məcmuənin çatdırılma şəkli və qiyməti göstərilmişdir.İki xəttlə ayrılan alt qisimdə, sağ tərəfdə məcmuənin nömrəsi, ortada çıxdığı tarix, sol tərəfdə isə ili göstərilmişdir.Məcmuə 230x 325mm boyunda kağız üzərinə nəşr olunmuşdur.

“İlk sayından etibarən, başlığın altında yer alan “Din, fəlsəfə, ədəbiyyat, hüquqvə elmdən bəhs edən həftəlik qəzetdir” yazısı 50-ci nömrəsindən etibarən “Din, fəlsəfə, elm, hüquq, ədəbiyyat və siyasətdən və xüsusilə həm siyasi, həm də ictimai və mədəni əhval və İslami məsələlərdən bəhs edir və həftədə bir dəfə nəşr olunur” cümləsi 108-ci sayısından sonra “həm siyasi, həm də ictimai və mədəni” hissəsi çıxarılmış və sərlövhə son şəklini almışdır.” (7,s.11)

“Sıratı-müstəqim” ilk çıxdığı nömrəsindən 108-ci sayına qədər geniş ölçüdə məsələlərə toxunsa da 108-ci nömrəsindən etibarən bəzi məsələlər ixtisar edilmişdir. Bu özünü 108-cı sayıda başlığın altında yer alan cümlədə də göstərir. Məcmuənin adının altındakı sərlövhə “Din, fəlsəfə, elm, hüquq, ədəbiyyat və siyasətdən və İslamı məsələlərdən bəhs edir və həftədə bir dəfə nəşr olunur” olaraq dəyişmişdir. Eyni zamanda məcmuənin 50-ci nömrəsinə qədər Ebüləla Zeynalabidin Mardin və Ə.Edib Fərqan imtiyaz sahibi və müdiri olmuşdur. 50-ci sayıdan sonra isə imtiyaz sahibi və məsul müdir təkcə Ə.Edib Fərqan olmuşdur.

Məcmuə sadəcə Türkiyədə deyil, bütün dünyaya yayılmış və rəğbət görmüşdür. “İlk sayından etibarən bir neçə il minlərcə tirajla nəşr edilən məcmuə, başda Rusya olmaqla Adriatik sahillərindən Bəsrə körfəzinə, Qara dənizdən Qırmızı dəniz sahillərinə qədər geniş bir coğrafiyada yayılmışdır.” (1, s.14) İlk vaxtlardan etibarən yetmiş minə yaxın tirajla nəşr olunan məcmuə böyük rəğbət görmüşdür. Çıxdığı ilk gündən böyük tələb görən məcmuə əl-əl dolaşır. Bu haqda Əşrəf Edib o günkü duyğularını 1958-ci ildə “Səbilür-rəşadın əllinci ilinə həsr olunmuş 276-cı sayında əks etdirmişdir. “İlk çıxdığı günlərin həyəcanını heç unudmuram. İllərcə həsrətini çəkdiyimiz “hürriyyət günəşi” doğar-doğmaz mətbəələrə qaçdıq. “Sıratı-müstəqim” adı

ilə ilk nüsxə çıxınca Babı-ali altüst oldu. Qəzet-jurnal satanların "Sıratı-müstəqim, Sıratı-müstəqim" səsləri hər tərəfə yayıldı. 24 saat keçmədən on minlərcə nüsxəsi yağmalandı. Təkrar nəşr etdik. Yenə bitdi. İlk nüsxədən sonra ikinci nüsxənin də nəşri tamamlandı. Məmləkətin hər tərəfindən teleqraflar yağmalanmağa başlandı. Mətbəələr gecə-gündüz işlədiyi halda çatdıra bilmirdilər. Qısa bir vaxtda Bağdada və Yəmənə qədər bütün məmləkət "Sıratı-müstəqim" doldu və bütün İslam dünyasına daşmağa başladı. Böyük alimlərin, qüdrətli ustadların qiymətli əsərləriylə "Sıratı-müstəqim" ən birinci məcmuə oldu. Hələ Akifin bütün şeirləri könüllərə elə həyəcan verdi ki..."(2, s.2- 12)

"Sıratı-müstəqim" Azərbaycanda da tanınan və çox oxunan bir məcmuə olmuşdur. Bu haqda bir çox qaynaqlarda, o cümlədən "Molla Nəsrəddin" jurnalının sayılarında rast gəlirik. "Molla Nəsrəddin" jurnalı "Sırat-müstəqim"də çıxan yazılara öz münasibətini bildirməklə yanaşı, məcmuənin gələn yeni sayılarının mədrəsə kitabxanasında mövcud olduğunu bildirir. Bəzi nömrələrində "Sıratı-müstəqim"də çıxan yazılara münasibət də bildirilmişdir.

"Yenə dövr etibariylə 1908-ci illərin Sıratı-müstəqim məcmuəsi klassik və ənənəvi bir İslamçı mətbu orqanı olmadığını söyləyə bilərik. Bu dövrdə məcmuə türkcü, islamcı və hətta nadir də olsa Qərb ideologiyasını mənimsəyən yazıçıların yazılarına da yer vermişdir. Məcmuədə Rusyadan qaçıb, Osmanlının paytaxtına gələn şair və yazışıların olması maraq doğurur. Məcmuə, bu yazıların, tatar modernizmi, cədidçilik, türcülük və turancılıq haqqında olan yazılarını nəşr etmişdir. Məcmuənin müsəlman türkləri haqqında olan yazıları başda Azərbaycan olmaq üzrə digər Türk-İslam dünyasında da maraq doğurmuş, eyni zamanda birləşdirici xarakter daşımışdır. Belə ki, Rusya müsəlmanları üzərindəki təsiri məcmuənin bir müddət Rusyaya girişini çətinləşdirmiş və Rus dövlətinin narahatçılığına səbəb olmuşdur."(5, s.258-261)

Məcmuə 1912-ci il fevral ayının 182-ci sayısına qədər 7 cild halında yayınlanan "Sıratı-müstəqim", sonrakı 8 Mart 1912-ci il 183-cü sayından etibarən adı dəyişdirilmiş "Səbilür-rəşad" olaraq öz nəşrinə davam etmişdir. Adının dəyişməsi haqqında məlumat 182-ci sayında ilk səhifədə "Eyni məsələni daha ətraflı bir surətdə davam etdirmək üçün "Səbilürrəşad" adı altında nəşr edəcəkdir" kimi açıqlama verilmiştir.

Bu hadisəni Əşrəf Edib "Səbilürrəşad" məcmuəsində təfərrüatlı bir şəkildə "Ebülula Bəylə bərabər necə çalışdıq? Sıratı-müstəqimi necə çıxardıq?" başlıqlı yazısında vermişdir. Əbülulanın məcmuədən ayrıldığı zaman Əşrəf Edib Mehmet Akiflə bərabər abbas Halim Paşanın evində görüşür və bundan sonra məcmuənin hansı adla çıxacağını müzakirə edirlər. Əşrəf Edib yazır: "Abbas Paşa bir təklif irəli sürür: Quranadan bir səhifə açaq, nə ad çıxarsa onu da qoyaq. Razılaşdıq. Hərəm dairəsindən bir Mushafı-şərif (Quran) gətirildi. Bismillah ilə bir səhifə açdılar. "İttebiun ehdikum sebilürreşad" (daha sonra məcmuənin başlığının altına yazılır)ayəti-kərimi çıxdı. Hamımım "Səbilürrəşad" adının çox münasib olduğunu söylədik. Həm də "Sıratı-müstəqim"in mənasına da uyğun gəlirdi. Fəqət Tahirül-Mevlevi bizdən əvvəl bu adın imtiyazını almışdı. Ona müraciət etdik. Məmnuniyyətlə bizə verdi. Bununla da Sıratı-müstəqim Səbilürrəşad oldu. Qaldığımız yerdən Akif Bəylə bərabər nəşrinə davam etdik" (3, s.199- 200.)



"Sebilürrəşad" sərlövhəsinin altında yenə Sıratı-müstəqimin missiyasını davam etdir-diyini göstərən "Dini, elmi, ədəbi, siyasi həftəlik məcmuəyi-islamidir". Bu yazının sağ və sol

tərəflərində Quranın Nur və Mömin surələrindən iki ayət yer alır. Sağ tərəfdə: "Vallahü yehdi men yeşau ila sıratin müstakim" (Allah dilədiyini doğru yola yönəldər- Nur surəsi 46). Sol tərəfdə: "İttebiun ehdiküm sebilerreşad" (Mənim ardımca gəlin ki, (mənə tabe olun ki,) sizi doğru yola çıxardım- Mömin surəsi 38). Ortadakı yazı ilə bərabər sağ və soldakı ayətlərdən alınmış surələr Səbilürrəşadın İslam düşüncəsi, əxlaqı və İslam birliyi missiyasını davam etdirəcəyini bir daha göstərir. Ortadakı yazının altıda "Sahib və müdiri-məsul: H.Əşrəf Edib" yazılmışdır. Ən altda iki xətt arasında yenə sağdan sola baxdığımızda "Ədəd 1-183", ortada 19 Rəbiüləvvəl 1330 Cümə, 24 Subat (fevral) 1327" olaraq Rumi və Hicri təqvimlərinə görə məcmuənin tarixi qeyd edilmişdir.

"Səbilürrəşad" olaraq yayınlanan ilk sayıda dörd ilə yaxın bir müddət ərzində göstərilən fəaliyyətlər, oxucuların rəğbət və məhəbbəti, eləcə də bütün bunların qarşısında Türk-İslam aləminin birliyi və möhkəmliyi üçün əlindən gələni edəcəyini yazır. "Üç il yarımdır ki, məcmuəmiz dinə, vətənə, elim və maarifə, İslam aləminin bir-birini tanımasına, qəflət yuxusundan oyanmasına və inancının güclənməsi üçün etdiyimiz xidmə hamıya məlumdur. Məcmuənin istiqaməti və ciddiyyəti, Cənabı-Haqqın lütfü və köməyi sayəsində qısa bir vaxtda bütün İslam aləminə yayıldı. Əks-sədası bütün Rusya, Çin, Hindistan və hətta Yaponyaya qədər gedib çıxdı. İnşallah işıq üzü görən məcmuəmiz bundan sonra istər bu başlıqda hasil olan alışqanlıq, istərsə də yazıları ilə məcmuəmizin bu səviyyəyə gəlməsində payı olan möhtərəm insanalrın sayəsində daha maraqlı, daha çox birləşdirici və qəflətdən oyandıracaq yazılar nəşr olunacaqdır. Bu vədimizə oxucularımız əmin ola bilərlər. Ona görə ki, məcmuəmizin indiyə qədər çıxan cüzlərini izləyən insaf əhli məcmuəmizin nə qədər doğru, nə qədər mütədil və açıq bir yol tutduğunu və əqidəmizə bağlı qaldığımızı təqdirə layiq hesab etmişlər" (Sebilürreşad (1327), "el-Cahidu fi Sebilillah", Aded:1-183, C. 1-8.)

İlk vaxtlar İttihad və Tərəqqi partiyasın tərəf olan məcmuə, daha sonra Bu prtiyanın mənsublarını fikir və hərəkətlərindən narahat olur, müxalifət cəbhəsinə keçir. Məcmuədə yayınlanan müxalif yazılara görə Səbilürrəşad 11-18 İyun 1914-cü il tarixləri arasında bağlanma cəzasını alır. Lakin fəaliyyətlərinin durdurmayan ədiblər, məcmuənin adını dəyişərək 300 və 301-ci sayıları "Səbilünnəcat" adı altında nəşr edirlər. Senzura tərəfindən məcmuədə çıxan bəzi yazılar qadağan edilir. Dövrünün ikdidar partiyası olan İttihad və Tərəqqi hökumətini siyasətinə müxalif olduğu üçün ikinci dəfə 26 Oktyabr 1916-cı ildə 360-cı sayından sonra dövlət tərəfindən nəşri dayandırılır.

İktidardakı İttihad və Tərəqqi partiyası istefaya getdikdən sonra 14 Oktyabr 1918-ci ildə Əhməd İzzət Paşa hökuməti qurulur. Sultan Vahdəddin taxta çıxır. Səbilürrəşad da məhz həmin gün 361-ci nömrəsi ilə təkrar işıq üzü görür.

Dörd il sürən I Dünya müharibəsindən məğlub olaraq çıxan Osmanlı dövləti 30 Oktyabr 1918-ci ildə "Mondros mütarekəsi"ni imzalamaq məcburiyyətndə qalır. Bu anlaşama Osmanlı dövlətinin dağılmasına, torpaqların parçalanmasına səbəb olmuşdur. Bu da öz növbəsində Qərb İmperialis dövlətlərinə qarşı aparılan milli-mübarizə illərinin ağrı-acısını gətirmişdir. Belə bir dövrdə məcmuədəki yazılar sadəcə İslam birliyinə deyil, milli birliyə səsləyən yazıalar yayınlayır.

Mütarikə illərində 13 Noyabr 1918-ci ildə ixtilaf donanmaları İstanbul boğazına lövbər salaraq şəhəri işğal edir. İstanbulda nəşr olunan məcmuə gərgin və ağır günlərdə bağlanır. Fəqət baş redaktoru olan Mehemt Akif Ərsoy milli mübarizəni dəstəkləmək üçün qəzetin nəşri üçün lazımi avadanlığı da özü ilə götürərək Anadoluya gedir. 19 Oktyabr 1920-ci ildə Kastamonuya gəlir. O dövrdə Anadoluda yayınlanan ilk və tek qəzet olan "Açıq söz", "Səbilürrəşad"ın baş redaktoru böyük İslam şairi Mehmed Akif Bəy Əfəndinin Ankaraya gəldiyini Ankara qəzetlərindən öyrəndiklərini, eləcə də, Zülmə razı olmayaraq ailəsini, rifahını İstanbulda tərk edərək gəldiyi haqqında məlumat verir. Daha sonra vicdanlı şairin Anadolunun vəziyyətini şeirləri ilə tərənnüm etməsini arzu etdiklərini yazır.

M.Akif gəldiyi ilk günlərdən"Səbilürrəşad" məcmuəsinin nəşrinin hazırlıqlarına başlayır. "Səbilürrəşad"ın Kastamonuda nəşrinə davam etməsinin yenə "Açıq söz" qəzeti öz səhifələrində xəbər verir. "İslamcı qəzet olan Səbilürrəşad Kastamonumuzun şərəfinə ilk nüsxəsini şəhərimizdə nəşr edəcəkdir. Bütün İslam aləmində çox böyük bir dini təsiri olan möhtərəm naşir, baş redaktor Mehmet Akif və müdiri Əşrəf Edib bəylərin şəhərimizdə qaldıqları müddətcə müqəddəs amal uğrunda çalışmalarına davam edəcəklərini məmnuniyyətlə xəbər aldıq. Hər müsəlman üçün qiymətli olan qəzetin mütəmadi olaraq nəşrini arzu edirik". ( M.Akif Edebiyat ve Düşünce. T.Y.B Ankara 2010, Vefatının 73.yılında M.Akif Ersoy Bilgi Şöleni 4, s.42)

Bu xəbərdən iki gün sonra, yəni 28 Noyabr 1920-ci ildə Səbilürrəşadın ilk sayısı Kastamonuda çıxar. Bu sayıda baş redaktor Mehmet Akif Səbilürrəşadın İstanbulda nəşrinin artıq mümkün olmadığnı, Allahın izniylə bundan sonra Anadoluda davam etdiriləcəyini, Kastamonuda olduqları müddətcə burada nəşr olunacağını yazar. "Səbilürrəşad" olaraq məcmuənin 464, 465 və 466-cı sayılar Kastamonuda çıxar.M.Akif ƏrsoyKastamonu və Ankarada məcmuənin nəşrinə davam edir.

Yunan ordularının Anadoluya irəliləməsi Ankaranı təlaşlandırır. Ən mühüm orqanlar, o cümlədən xəzinə və rəsmi sənədlər daha etibarlı hesab edilən Kayseriyə nəql olunur. Ordunun yanında olmağı tərcih edən M.Akif, Ə.Edibə məcmuəni də alıb Kayseriyə getməsini söyləyir. "Sən Səbilürrəşadın nəşri üçün lazım olan avadanlığı götür, Kayseriyə get. Səbilürrəşadı orada çıxar. Arxamızdakı müsəlmanlar qəmgin olub, ümidsizliyə düşməsinlər. (s.44) Əşrəf Edib Səbilürrəşadı Kayseriyə gətirir. Anadolunun milli-mübarizə ruhunu yüksəltmək məqsədilə yayınlanan hər sayısında xalqın mübarizə əzmini artırmaq üçün vətənpərvərlik ruhunda yazılan müraciət xarakterindəki bir səhifəlik əlavəni Kastamonu və Kayseri xalqına paylayır. Konyaya gedən M.Akif xalqa vətənin təhlükədə olduğunu, millətin birləşərək yeni qurulan dövlətə dəstək olması üçün yazılar yazır, çıxışlar edir. Xalqın birlik olub, vətənin müdafiəsinə çıxmasında M.Akifin böyük rolu olmuşdur. M.Akifin və Ə.Edibin bu xidmətlərini görən Mustafa Kamal onları görüşə çağırır. Onları təqdir edərək; "Kastamonudakı vətənpərvəranə xidmətinizdən çox məmnun oldum. Sevr Muahedesinin (anlaşması) məmləkət üçün nə qədər faciəvi bir edam hökmü olduğunu "Səbilürrəşad qədər heş bir məcmuə məmləkətə nəşr edə bilmədi. Mənəvi cəbhəmizin qüvvətlənməsinə "Səbilürrəşad"ın böyük xidməti olmuşdur. Hər ikinizə şəxsən təşəkkür edirəm. Mən sizin hələ İstanbulda ikən də Milli mübarizəmizə etdiyiniz xidmətləri bilirəm. Sizin səmimiyyətiniz, milli mübarizəyə ürəkdən bağlılığınızı Anadoluda nəşr etdiyiniz nüsxələr göstərdi" deyir.

24 Sentyabr 1921-ci ildə 490-cı syını çıxarır. Dekabr ayına qədər tək bir nömrə çıxara bilən məcmuə Ankaraya gəlir və 10 Dekabr 1921-ci ildə 491-ci sayı işıq üzü görür. 1922-ci ilin Sentyabr ayında dövlətin mətbuata, o cümlədən "Səbilürrəşad"ın nəşrinə ödədiyi maddi dəstək kəsilir. M.Akif və Ə.Edib öz imkanları ilə 21 Aprel 1923-cü ilə qədər "Səbilürrəşad"ın nəşrinə Ankarada davam etməyə çalışırlar. Ankarada ən son 527-ci sayı çıxır və May ayında təkrar İstanbula geri qayıdırlar.528-dən 641-ə qədər olan sayılar İstanbulda nəşr olunur. Son sayı 5 Mart 1925-ci ildə yayınlanır.

24 İyul 1923-cü ildə İsveçrənin Lozan şəhərində "Lozan sülh anlaşması" imzalanır. Bu anlaşmadan sonra ölkədə bəzi şeylər dəyişir. Bunlardan biri də İslamcıların TBMM-dən uzaqlaşdırılması idi. 1925-ci ildə çıxan "Şeyx Said" üsyanı vəziyyəti daha da gərginləşdirir. Bu da bahanə edilərək bir çox mətbu orqanları ilə birlikdə "Səbilürrəşad" da bağlanır. Üsyana səbəbiyyət verməsi iddia edilərək Ə.Edin hemin il qurulan İstiqlal Məhkəməsi tərəfindən həbs edilir. Üç aya yaxın bir müddət mühakimə edilən Ə.Edib Ankaradan gələn qərarla bəraət edir və 13 Sentyabr 1925-ci ildə azadlığa buraxılır. M.Akif isə 1925-ci ilin Sentyabr ayında yaşadığı haqsızlıqlar üzündən küsər və Abbas Halim Paşanın dəvəti ilə Misirə bir daha dönməmək üzrə gedər. Bütün bu səsbəblərdən məcmuə 641-ci sayından sonra, 5 Mart 1925-ci ildə bağlanır.

1908-1925-ci illər arasında məcmuə "Sıratı-müstəqim" adıyla 182, "Səbilürrəşad" adı altında isə 459 sayı yayınlanan məcmuə toplam 641 sayı olaraq nəşr olunmuşdur.

Məcmuə 22 il fasilədən sonra 1948-ci ilin May ayında yenə "Səbilürrəşad" adı altında işıq üzü görür. 1966-ci ilə qədər 362 sayı olaraq nəşr edilən məcmuə 1966-cı ildə təkrar bağlanır. (Ceylan Abdullah, Sıratı-müstakim ve Sebilürreşad Mecmuaları Fihristi, Diyanet İşleri Başkanlığı Yayınları, Ankara 1991 VII-X) Bununla da "Səbilürrəşad" 1908-1966-cı illər arasında toplam 1003 sayı nəşr edilmişdir.

Səratı-müstəqim/ Sebilürrəşad məcmuəsinin əsas qayəsi müasirləşən İslam Şərqinin Avropa qarşısında milli-mənəvi və mədəni dəyərlərini qoruya bilməsi yolunda rəhbərlik etmək, cəmiyyəti doğru yola yönləndirməkdir.Bunu Səbilürrəşadın (1327) 1912-ci ildə çıxan 183-cü sayının birinci səhifəsində yer alan cümlələr bir daha təsdiq edir. "Sıratı-müstəqim"in nəşrində yeganə məqsəd müsəlmanların intibahına və İslamın yüksəlişinə xidmətdir. Onun üçün bu xüsusda əldən gələn fədakarlığın olunacağı təbiidir. Ancaq bu qayəyə çatmaq üçün eyni fikrə, eyni məqsədə xidmət edən insanlar birlikdə çalışmalıdır ki, oxucuların sayı artsın." (11, s.1)

Məhz buna görə də M.Akif Ərsoyun ətrafında toplanan alim və ədiblər üzərlərinə düşən vəzifənin fərqində olub, eyni qayə uğrunda məcmuədə nəşr olunacaq mövzular diqqətlə seçilmişdir. Səbilürrəşad, İslam ölkələrində Qərb ölkələrində olduğu kimi təkcə fərd olaraq inanc və əxlaq qanunlarını yerinə yetirib, sosial və siyasi həyata əks etdirmədiyi halda sosial bütünlüyün və tərəqqinin mümkün olmayacağına inanır. Elə buna görə də məcmuədə qələmə alınan mövzular İslam aləminin sosial bütünlüyünə və tərqqisinə həsr olunmuşdur. Seçilən mövzular İslam dininin digər dinlərdən fərqli olaraq, sadəcə ibadətlə əlaqədar olmadığını, eyni zamanda dünyəvilik yönüylə həyatın hər sahəsində müsbət rolu ola biləcəyini göstərmişdir.

Məcmuə başlığında da ifadə etdiyi üzrə əsasən İslam ideologiyasına bağlı olduğu üçün İslamcılıq cərəyanına mənsub elm-irfan sahiblərinin, dövlət adamlarının yazıları ilə qarşılaşırıq.

Tedid, islah, İttihadı-İslam, ihya, panislamizm kimi kəlimə və tərkiblər XIX və XX əsrdə Qərbin meydan oxumalarına, müstəmləkəciliyə, siyasi pozitivizmə, materializmə qarşı elm və fəlsəfi modernləşmə adına həyata keçirilən avropalılaşma siyasətinə qarşı mədəni-ictimai bir cavab vermə tərzi olaraq görülən və İslam dünyasının içinədüşdüyü ağır vəziyyətdən qurtulub yenidən əvvəlki gücünə qovuşa bilməsi üçün İslamın siyasi, elmi, mədəni, ictimai baxımdan yetərli gücə sahib olduğunu; lakin bunun üçün müsəlmanların din və inanc anlayışlarının dəyişməsini irəli sürən və bütün müsəlmanların birləşmələrini arzu edən idealist, modern, eklektik yönləri olan siyasi, ideoloji və elmi çalışmaların, məsələnin həlli yollarının axtarılması və bu yolda atılan addımların adı olaraq ifadə edilir. (6, s. XX-XXI)

Buna baxmayaraq, Sıratı-müstəqim(Səbilürrəşad) məcmuəsi klassik və ənənəvi İslamcı bir mətbu orqanı olmadığını çıxan yazılar əsasən söyləyə bilərik. Belə ki, 1908-1912-ci illər arasında məcmuə Türkcülük, İslamcılıq, hətta az da olsa Qərbçilik ideologiyasını təmsil edən yazıçıların əsərlərinə də yer vermişdir. Məcmuə Türk dünyası və İslam aləminə böyük xidmət göstərmiş, yatmış insanların oyanması üçün əlindən gələni etmişdir. İnsanların səfil vəziyyətə düşməsi, yaşadığı bütün bəlaların səbəbinm olaraq savadsızlığı və tənbəlliyi göstərir. Müsəlman türklərini milli-mənəvi kimliklərinə sahib çıxmağa çağırmışdır. Məcmuənin və baş redaktoru olan M.Akifin öyrənilməsi Rusyada və daha sonra Sovetlər birliyində panislamizm damğası vurularaq qadağan edilir.

Məcmuədə Rusyadan Osmanlının paytaxtına köçmüş yazıçı və şairlərin olması mənalıdır. Məcmuə bu yazıçıların tatar modernizmi, cədidçilik, türkcülük və turancılıq haqqında yazdığı yazıları dərc edər. Məcmuənin müsəlman türkləri ilə əlaqədar yazıları, başda Azərbaycan olmaq üzrə digər Türk-İslam dünyasında böyük maraqla izlənir və birləşdirici bir vəzifəni ifa edir. Belə ki. Rusya müsəlmanlarına olan təsiri məcmuənin bir müddət Rusyaya girişini çətinləşdirmiş və Rus idarəsi üzərində bir narahatçılığa səbəb olmuşdur. (5, s. 258-260)

Sıratı-müstəqimin əsas qayəsi İslam aləminə, türk dünyasına xidmət olduğu üçün səhifələrində yer alan mövzularda məh bu istiqamətdə olmuşdur. İslamcılıq və Avropalılaşma

(Qərbliləşmə), milliyyətçilik, sosial məsələlər, müasirlik və laiqlik anlayışı üzərində durulmuşdur. Bunlarla yanaşı demokratiya, maarifçilik, milli və modern təhsil, eləcə də İslamda və cəmiyyətdə qadın məsələləri məcmuənin əsas mövzularına çevrilmişdir.

Məcmuədə "Nisaiyat" başlığı altında yer alan yazılar bu gün belə İslamafobiyanın qarşısında dura biləcək gücdədir. İslamda qadın haqlarını təhlil edən yazılar Avropanın, xristian dünyasının göstərmək istədiyi kimi İslamın qadına xor baxması deyil, tam tərsi olaraq uca tutduğunu, cənnəti belə onun ayaqları altına sərdiyini göstərir. Hətta Avropada qadına qarşı göstərilən basqıdan, onu xor görməkdən doğan feminizmə İslam aləmində ehtiyac olmadığını ifadə edir.

Dünyada ölkələrin adil idarə edilməsi, insanlara demokratiyanın verilməsi məsələsi sivil bir şəkildə ələ alınlır. Demokratiyanın xalq hakimiyyəti, çoxluğun idarəsi olduğunu ifadə edən yazılar da məcmuədə yer alır.

Məcmuədə "İctimaiyyət" sərlövhəsi ilə ayrılmış bölmədə cəmiyyəti, xalqı maraqlandıran, eləcə də problem təşkil edən məsələlərə aydınlıq gətirilir. Əhməd Həmdi Aksekili, Həsən Hikmət, Mehmed Fahreddin, Mehmed Şemseddin, Həsən Tahsin, Ferid Vecdi, Edhem Nejad kimi bir çox yazıçılar məhz sosial məsələləri təhlil edən yazılarla məcmuədə çıxış etmişlər.

İslamcılıq və Avropalılaşma ilə əlaqədar yazılan yazılar İslam dininin mükəmməl olduğunu isbat edir. Avropa XVIII əsrə qədər qaranlıq bir dünyada cəhalətdə yaşayan, kilsənin təziqi altında inlərkən, Şərq dünyası böyük tərəqqi içində olmuşdur. Şərq hər zaman Qərbdən üstün olduğu halda XVIII əsrdən sonra Qərb dünyası çalışaraq, elmi və texnologiya sahəsində böyük naaliyətlər əldə edərək inkişaf inkişaf etmişdir. Şərq dünyasının, xüsusilə də İslam dünyasının geri qalması heç də İslamla əlaqədar olmayıb, insanların savadsızlığı, cahilliyi, tənbəlliyi və bunun nəticəsi olaraq başlarına gələn hər şeyi Allahla əlaqələndirmələridir.

Bu gün belə aktual olan bu cür mövzular elmi nöqteyi-nəzərdən təhlil olunmuş və məcmuədə yer almışdır. Məcmuədə M.Abduh, F.Vecdi və Əbdüləziz Çaviş kimi çağdaş İslam düşüncəsində mühüm rolu olan, ağlı əsas alan və dini bir islahın həyata keçirilməsini vurğulayan yazıçıların ətrafında böyük tərəfdar kütləsi meydana gəlmişdi. Bu şəxsiyyətlərlə yanaşı məcmuədə davamlı yazı yazan ədiblərdən Babanzadə Əhməd Naim, Fərid Kam, Mehmed Fahreddin, Ispartalı Hakkı, Midhat Cemal Kuntay, Halim Sabit (Şibay), Tahirül-Mevlevi (Olqun), Əhməd Həmdi Akseki, Şeyxülislam Musa Kazım, İzmirli İsmail Hakkı, Muhammed Hamdi Yazır və digərlərinin adlarını çəkə bilərik.

İslamçı bir yayın olan Səbilürrəşad, İslam toplumunda din-dövlət-cəmiyyət arasındakı uyğunluğun inanc, əxlaq, sosial yaşayış və siyasi qaydaların tamamın özündə əks etdirən bir sistem tərəfindən həyata keçirə biləcəyinə inanmaqdır. İslamiyyətin gətirmiş olduğu qaydaların təbiətdə mövcud olan qanunların bir bəzəri olub, insanlar üçün yaradılmış formasından başqa bir məna ifadə etmədiyini iddia edən Səbilürrəşad, İslamın inanc tərkibinin əxlaq təşkil etdiyini, bunun da cəmiyyətin sosial qurluşunu formalaşdırəb, təməlləndirdiyini ifadə edir. (11, s.255)

Məcmuədə yuxarıda da qeyd etdiyimiz kimi müsəlman-türk dünyasını maraqlandıran, onların tərəqqisi, müstəmləkədən, səfalətdən, cəhalətdən qurtulması üçün məşhur türkcü ideoloqların yazdığı məqalələrlə də qarşılaşırıq. İslam ideologiyasını mənimsəyən yazıçılarla yanaşı məcmuədə türkcülük ideologiyasını təmsil edən önəmli yazıçıların məqalələrinə rastlayırıq. Bunlardan İsmail Qaspıralı, Əhməd Ağaoğlu (Ağayev), Ayaz İshaki, Yusuf Akçura və digərləri türk modernizmi, türkcülük və turancılıq məsələlərini işıqlandıran yazılar yazmışlar.

Sıratı-müstəqim İslamçılıqla türkcülüyü bir bütün olaraq ələ alınaraq dərk edilməsinə və yaşadılmasına çalışır. Məhz bu yöndə milli-mənəvi dəyərləri bir yerdə tutan yazılar yazılır. Müəllif yazıları ilə yanaşı yenə də eyni məqsədə xidmət edən ədəbi tərcümələr də məcmuədə mühüm yer tutur. Məhəmməd Əbduh. Rəşid Rza, Fərid Vecdi, Əbdüləziz Çaviş, Said Halim Paşa, Süleyman Nedvi, Əbülkəlam Azad kimi Şərq alim və ilahiyyatçılarının yazdıqları əsərlər Mehmed Akif tərəfində özünəməxsus üslubda tərcümə edilmişdir.Sıratı-müstəqim

(Səbilürrəşad) məcmuəsinin əsas qayəsi müasirləşən İslam Şərqinin Avropa qarşısında milli-mənəvi və mədəni dəyərlərini qoruya bilməsi yolunda rəhbərlik etmək, cəmiyyəti doğru yönə yönləndirməkdir. Bunu Səbilürrəşadın (1327)1912-ci ildə çıxan 183-cü sayısının birinci səhifəsində yer alan cümlələr bir daha təsdiq edir. “Sıratı-müstəqimin nəşrindən yeganə məqsəd müsəlmanların intibahına və İslamın yüksəlişinə xidmətdir. Onun üçün bu xüsusda əldən gələn fədakarlığın olunacağı təbiidir. Lakin bu qayəyə çatmaq üçün eyni fikrə. Eyni məqsədə xidmət edən insanlar birlikdə çalışmalıdırlar ki, oxucuların sayı artsın”. (11, s.1.) Sıratı-müstəqim / Səbilürrəşad ilk başladığı gündən sonuna qədər bu qayəsinə sadiq qaldı və arzu etdiyindən çox oxucusu oldu.

2017-ci ilin mart ayından “Səbilürrəşad” məcmuəsini öz sələflərinin yolunu davam etdirən vətən evladları tərəfindən yenidən nəşrinə başlamışdır. Məcmuə yeni yazıçılar və rəhbərliklə nəşrinə davam etsə də 1908-ci ildə başlatılan missiya ilə eyni müstəvidə fəaliyyətini bərpa etmişdir. Məcmuə bu gün də Müsəlman Şərqini, Qərbdən Şərqə, asiyadan Afrikaya, xülasə bütün bəşəriyyətə İslam birlyi ətrafında toplanmağı, elm, irfan və hikmətlə İslam mədəniyyətinin inşasına xidmət etmək missiyası ilə hərəkət edir.

**Nəticə**

*Türk siyasət tarixinin ən keşməkeşli günlərində nəşr həyatına başalayan Sıratı-müstəqim, türk mətbuat və ədəbiyyat tarixində mühüm bir yer tutur. İlk gündən qaşıya qoyulan hədəfə ulaşa bilmək üçün bütün çətinliklərə baxmayaraq əlindən gələni etmişdir. Sıratı-müstəqim sadəcə Osmanlı sərhədləri içində deyil bütün dünyada yaşayan müsəlmanlara ulaşmaq istəmiş və bu mənada arzusuna çatmışdır. İslamcı məcmuə olmasına baxmayaraq, digər ideologiyalara da böyük hörmətlə yanaşmış, səhifələrində onlara yer ayırmışdır. Milli mücadilə illərində vətənin keşiyində duran müsəlləh əsgər kimi şəhər şəhər dolaşmış, insanları qurtuluşa dəvət edən yazılar yayınlamışdır. Rusyadakı müsəlman-türkləri də unutmamış, onların yaşadıqları problemləri dilə gətirən yazıları yayınlamış, Rusyadan köçmüş yazıçıların əsərlərini dərc etmişdir.*

*Sadəcə dini məsələləri deyil, sosial-siyasi, mədəni, ədəbi məsələlər də məcmuədə öz yerini almışdır. Nəşrinə başladığı ilk gündən Dövləti-Aliyənin dağılmaması, müsəlman Şərqinin birliyini, inancını qoruması, cəhalətdən qurtulub tərəqqi etməsi məsələsini özünə əsas qayə etmiş və bu yolda da yorulmadan fəaliyyət göstərmişdir.*

**Ədəbiyyat siyahısı:**

1. E.Edib, Mehmet Akif Ərsoy, C.I, İstanbul 1938
2. E.Edib, "Sebilürreşad'ın Ellinci Yılı", Sebilürreşild, C. XII, Sayı 276, Eylül 1958
3. E. Edib, (1957), "Ebu'l-Uia Beyle Beraber Nasıl Çalıştık? Suat-ı Müstakim'i Nasıl Çıkardık? Sebilürreşlid, S. 238
4. Ceylan Abdullah, Sıratı-müstakim ve Sebilürreşad Mecmuaları Fihristi, Diyanet İşleri Başkanlığı Yayınları, Ankara 1991
5. Günaydın, Yusuf Turan, "Suat-ı Müstakim ve Sebilürreşad'da Mehmed Akif'in Rolü ve İzleri11, *Hece* Mehmet Akif Özel Sayısı, Yıl:12,S:133, Ocak 2008
6. İsmail Kara, Türkiyede İslamcılık Düşüncesi, C.1, Risale Yayın, İstanbul 1987
7. M.Suat Mertoğlu Sırat-ı Mustakim Mecmuası, Açıklamalı Fihrist ve Dizin, klassik yayınlar 2008
8. M.Akif Edebiyat ve Düşünce. T.Y.B Ankara 2010, Vefatının 73.yılında M.Akif Ersoy Bilgi Şöleni 4
9. TDV İslâm Ansiklopedisi’nin 36. cildinde, 251-253, Ankara 2009
10. Sebilürreşad (1327), "el-Cahidu fi Sebilillah", Aded:1-183, C. 1-8
11. Sebilürreşad, C:15, S:378, Yıl:1334,13

**Серийя Гюндогду**

**История журнала "Сыраты-Мустагим"**

Сыраты-Мустагим /Сабилурршад- издание вышедшее в период самых важных исторических и политических событий в Турции. Журнал существовал в период принятие второй Конституции, Балканских войн, партии Единение и Прогресс, период Перемирия (Мутарике), Национальной Борьбы, а также первые годыпровозглашение Турецкой Республики.

Издание, созданное М. Акиф Эрсоем и Эфреф Эдибом в 1908 году, называлось Сырати-Мустагим. Данный журнал был создан с целью донести идеалогические идеи широкому кругу читателей. Играя важную роль в развитии общественно-политической, литературной и культурной жизни того периода, это издание служит достоверным историческим документом. Сырати-мустагим- Сабилуррешад был опубликован в виде 1000 номеров, которые в последствии были собраны в 47 томов. Сырати-Мустагим является научным, литературным историческим документом, отражающим социально-идеологический взгляд на период независимости. Основной идеей журнала было сохранение государственности, единство мусульманского Востока и его веры.

***Ключевые слова:*** *Сырати-Мустагим, Сабилуррешад, дата издания, Мехмет Акиф Эрсой.*

**Sariyya Gundogdu**

**History of the journal "Sirat al Mustagim"**

The journal Sirat al Mustaqim /Sabeelurrashad was published during the period of the most important historical and political events in Turkey. The magazine existed during the adoption of the second Constitution, the Balkan Wars, the Unity and Progress Party, the Armistice Period (Mutharika), the National Struggle, and the early years of the Declaration of the Turkish Republic.

The journal called Syrati-Mustagim was created by M. AkifErsoy and EfrefEdib in 1908. The aim of the journal was bringing ideological ideas to a wide audience. Playing an important role in the development of the socio-political, literary and cultural life of that period, this publication serves as a reliable historical document. Syrati-Mustagim/Sabilurresad was published in the form of 1000 issues, which were subsequently collected in 47 volumes. Syrati-Mustagim is a scientific, literary and historical document reflecting the socio-ideological view of the period of independence. The main idea of the magazine was the preservation of statehood, the unity of the Muslim East and its faith.

***Keywords:*** *Sirat al Mustagim, Sabilurresad, publication date, Mehmet AkifErsoy.*

Redaksiyaya daxil olma tarixi: 16.07.2019
Çapa qəbul olunma tarixi: 11.09.2019

Akademik **Teymur Kərimli** tərəfindən çapa tövsiyə olunmuşdur.